**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# "KOMMUNİST" QƏZETİNDƏ TƏNQİD VƏ ƏDƏBİ PROSES (1919–1991-ci illər)

| | |
|---|---|
| İxtisas: | 5716.01– Azərbaycan ədəbiyyatı |
| Elm sahəsi: | Filologiya |
| İddiaçı: | **Qabil Yusif oğlu Əliyev** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin "Yeni və müasir Azərbaycan ədəbiyyatının tədqiqi və təqdimi şöbəsi"ndə yerinə yetirilmişdir.

Elmi rəhbər: AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
**Rafael Baba oğlu Hüseynov**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**İslam Eynəli oğlu Qəribov**

filologiya elmləri doktoru, professor
**Yaqub Məhərrəm oğlu Babayev**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Ülviyyə Həsaməddin qızı Rəhimova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
**İsa Əkbər oğlu Həbibbəyli**

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent
**İsmixan Məhəmməd oğlu Osmanlı**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, professor
**İmamverdi Yavər oğlu Həmidov**

## DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Keçən əsrin iyirminci illərində Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra ictimai-siyasi mühitdə olduğu kimi, ədəbi mühitdə də dövrün, zamanın tələblərindən irəli gələn yeni yanaşmalar meydana çıxdı. Yeni hakimiyyət bütün sahələrdə olduğu kimi, ədəbiyyatı da inhisarına alaraq yaradıcı ziyalıların qarşısında şərtlər qoymağa, yazıçılardan Kommunist partiyasını, ölkədə yürüdülən siyasi xətti təbliğ edən əsərlər yazmağı tələb etməyə başladı.

Azərbaycanda Sovet hakimiyyətinin qurulmasının ilk illərindən başlayaraq müstəqil mətbuat orqanlarının nəşrinə qadağalar qoyuldu, yalnız dövlətin rəsmi icazəsi ilə yeni quruluşla ayaqlaşa bilən qəzet və jurnalların çapına icazə verildi. Ömrü 23 ay olan Azərbaycan Xalq Cümhuriyyəti (AXC) hakimiyyəti dövründə yazıb-yaradan milli ziyalılar izlənməyə, təqib olunmağa başlandı. Bu illərdə Milli hökumətin üzvləri ilə qohumluq, dostluq əlaqələri olan, eləcə də onların düşüncə və əqidələrini qəbul edənlər siyasi cəhətdən şübhəlilər siyahısına daxil edilir, partiya və hökumət işlərindən uzaqlaşdırılırdı. Ən acınacaqlısı o idi ki, bu vaxta qədər ədəbi aləmdə müəyyən çəkiyə və nüfuza malik olan yazıçı və şairlərin fəaliyyəti təftiş edilir, onlardan yeni hökumətin siyasətini təbliğ etmək, bolşeviklərin Azərbaycanı işğal etməsini könüllü birləşmə kimi qələmə vermələri tələb olunurdu.

Məlum olduğu kimi, Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət mətbuat orqanları ilə yanaşı, leqal və gizli şəkildə nəşr olunan bir sıra müstəqil və siyasi qəzetlər fəaliyyət göstərirdi ki, onlardan biri də bolşeviklərin Bakıdakı tərəfdarlarının 1919-cu ilin avqustun 29-da nəşr etdikləri "Kommunist" qəzeti idi.

İlk nömrəsi 1919-cu il avqustun 29-da çıxan və 1991-ci ilin avqust ayına kimi fəaliyyət göstərən "Kommunist" qəzetinin (1991-ci ildən indiyədək "Xalq qəzeti" adı ilə nəşr olunur) 4 səhifədən ibarət birinci nömrəsində redaktorun adı göstərilməmişdi. Mətbuat tariximizin bir çox araşdırıcıları hesab edirlər ki, ilk nömrənin materiallarını Ruhulla Axundov redaktə etmişdir. Qəzetin ilk nömrəsində mövcud hakimiyyəti devirmək məqsədilə inqilabi çağırışlar dərc edilmişdi. Bunu nəzərə

alaraq, Milli Hökumət qəzetin fəaliyyətini dayandırmış, çap olunan nüsxələri müsadirə etmişdi.

Qəzetin müntəzəm nəşri 1920-ci il aprelin 27-dən 28-nə keçən gecə Qırmızı Ordunun Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətini devirdikdən sonra, daha dəqiq desək, aprelin 30-da başladı. Həmin günlərdə türk və rus dillərində nəşr olunan "Azərbaycan" və "Azerbayjan" qəzetlərinin nəşri dayandırılmış, onların əvəzinə türk və rus dillərində çıxan "Kommunist" qəzetinin fəaliyyətinə diqqət artırılmışdı.

Qeyd etmək lazımdır ki, bolşevizmin ideoloqları qəzetin təbliğat sahəsindəki gücünə yaxşı bələd idilər və "Kommunist"in ətrafında istedadlı jurnalistləri, ziyalıları toplamağa çalışırdılar. 1924-cü ildə Tiflisdə Cənubi Qafqaz mətbuatının sərgisi keçirilən zaman "Kommunist" tədbirdə ən yaxşı təmsil olunmuş qəzet kimi qiymətləndirildi. Gürcüstanda nəşr olunan "Zarya Vostoka" qəzeti 1924-cü il mayın 7-də yazırdı ki, indi türkcə "Kommunist", demək olar ki, SSRİ-nin ən yaxşı qəzetlərindən biridir.

Sovet hakimiyyətinin ilk illərində qəzetdə dərc olunan ədəbi-bədii nümunələrin çoxu felyeton və satirik şeirlərdən ibarət olmuşdur. Həmin nümunələrdə müəlliflərin imzaları, əksər hallarda, gizli saxlanılmışdır. Ölkədə gedən ictimai-siyasi mübarizə fonunda bir çox yazıçı və şairlər ilk günlərdən partiya və hökumətin yürütdüyü siyasəti təbliğ edir, digərləri isə əvvəlki kimi öz yaradıcılıqlarını sərbəst şəkildə davam etdirmək istəyirdilər. Qəzetdə nəşr olunan nümunələrə əsaslanmaqla, 1920–1926-cı illərdə ədəbiyyat xadimlərinin yaradıcılığına dövlət qurumları tərəfindən ciddi təzyiqləri müşahidə etməsək də, Bakıda keçirilən I Türkoloji qurultaydan sonra, xüsusilə 1927-ci ildən başlayaraq yazıçıların qarşısında konkret tapşırıqlar, vəzifələr qoyulduğunu görürük. Belə bir halın şahidi oluruq ki, həmin illərdə müəyyən ədəbi təcrübəsi olan yazıçılarla nisbətən "yumşaq" davranan hakimiyyət yaradıcılığa yeni başlayan gənclərdən sovet hakimiyyətini dəstəkləyən bədii nümunələr yaratmağı açıq şəkildə tələb edir, onların bu sahədəki fəaliyyətlərini təqdir etməklə əsərlərinin çapına "yaşıl işıq" yandırırdı. Qeyd edilən dövrdən başlayaraq sosializm realizmi ədəbiyyat xadimlərinin qarşısında konkret tələblər qoyurdu. Bunlar həyat

hadisələrinin sənətkar tərəfindən öz əsərlərində real əksi, hadisələri inqilabi inkişafda və real tarixi şəraitdə təsviri idi.

Bu dövrdə müşahidə edilən əsas cəhətlərdən biri də bu idi ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə yazıb-yaradan ədiblər təqib edilir, onlara etimadsızlıq göstərilir, əsərlərinin təhlili zamanı müxtəlif ittihamlar irəli sürülürdü. Xüsusilə "pantürkist", "panislamist" kimi fikirlər ortaya atılır, görkəmli yazarlar türkçülükdə və millətçilikdə suçlandırılırdı.

Sonrakı dönəmlərdə – istər 30–40-cı illər, istər İkinci Dünya savaşı, istərsə də Azərbaycanda dinc quruculuq illərində ədəbi-bədii orqan olmasa belə, "Kommunist" qəzetində dərc olunan yazılarda dövrün ictimai-siyasi mənzərəsi ilə paralel olaraq ədəbi mənzərəsini də izləmək mümkündür.

Çəkinmədən deyə bilərik ki, respublikamızın 1920–1990-cı illərdəki ictimai-siyasi, mədəni və təsərrüfat həyatı Azərbaycan Sovet Sosialist Respublikasının mövcud olduğu dövrdə çap olunan, Azərbaycan KP-nin rəsmi orqanı, respublikanın bir nömrəli ictimai-siaysı qəzeti olan "Kommunist" qəzetində əks olunmuşdur. İctimai-siyasi qəzet olsa da, qəzetin səhifələrində vaxtaşırı bədii nümunələrə və ədəbiyyatşünaslıq əsərlərinə də yer ayrılırdı ki, bu əsərlərin müasir elmi tələblər səviyyəsindən tədqiqi və dəyərləndirilməsi işin aktuallığını şərtləndirən əsas meyarlardandır.

Hesab edirik ki, "Kommunist" qəzetində dərc olunan ədəbi-bədii və ədəbiyyatşünaslıq əsərlərinin sistemli tədqiqi ictimai-siyasi şəraitin ədəbi mühitə təsiri ilə yanaşı, yazıçı və ədəbiyyatşünasların da ictimai mühitə təsiri məsələlərini öyrənmək üçün mühüm əhəmiyyətə malikdir.

"Kommunist" qəzetində dərc olunan ədəbi-bədii nümunələr və ədəbiyyatşünaslıq əsərləri, bir sıra istisnalar olmaqla, günümüzədək elmi-filoloji cəhətdən sistemli şəkildə araşdırılmamışdır. Oqtay Məmmədəov isə 1986-cı ildə "Zəhmətkeşlərin mənəvi tərbiyəsində mətbuatın rolu" (Respublika qəzetlərinin materialları əsasında–70-ci illər)[1] 2010-cü ildə İsmayıl Məmmədovun "Qəzet dilinin leksikası"

---

[1] Мамедов, О. Рол печати в нравственном воспитании трудящихся (По материалам республиканских газет–70-е годы) / Автореферат на соискание ученой степени кандидата филологических наук. О.Мамедов. – Киев: – 1986, стр. 24.

(1960-70-ci illərin “Kommunist” qəzetinin materialları əsasında)[2] kitabı, qəzetin 90 illik yubileyi ərəfəsində isə Elmar Məhərrəmov və Aytən Məhərrəmlinin birlikdə tərtib etdikləri “Xalq qəzeti”nin yaranması və inkişaf tarixindən” [3]adlı kitab nəşr edilmiş, 2020-ci ildə Lütviyyə Əsgərzadənin “Əhməd Triniç”[4] adlı kitabı işıq üzü görmüşdür. E.Məhərrəmov və A.Məhərrəmlinin kitabında, əsasən, qəzetin yaranması, ölkənin ictimai-siyasi həyatında oynadığı rolu barədə (1919–1929-cu illər) oxuculara məlumat verilmiş, lakin qəzetdə dərc edilən ayrı-ayrı ədəbi-bədii nümunələr, ədəbiyyatşünaslığa aid məqalələr, onların mövzu, məzmun, ideya və sənətkarlığı barədə söhbət açılmamışdır. L.Əsgərzadə isə öz kitabında, əsasən qəzetin redaktoru olmuş ictimai-siyasi xadim Əhməd Triniçin həyat və fəaliyyətindən bəhs etmişdir.

**Tədqiqatın obyekti və predmeti.** “Kommunist” qəzetinin 1919–1991-ci il nömrələrində dərc edilən ədəbi-bədii nümunələr və ədəbi tənqidin bu nümunələrə münasibəti, ayrı-ayrı yazıçılar və ədəbiyyatşünaslar haqqında yazılanlar təqdim olunmuş dissertasiyanın obyektini təşkil edir.

Müxtəlif zamanlarda və müxtəlif münasibətlərlə “Kommunist” qəzetində dərc olunmuş ədəbi-bədii və ədəbiyyatşünaslıq əsərləri, qəzetin ədəbi prosesə təsiri və qəzetin ədəbi mühitdəki yeri haqqında yazılanlar, 71 il ərzində qəzetin səhifələrində dərc edilən ədəbi nümunələrin bugünkü baxış bucağından təhlil edilməsi və qiymətləndirilməsi isə tədqiqatın predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın əsas məqsədi Azərbaycanda sovet hakimiyyəti illərində “Kommunist” qəzetində dərc edilən ədəbi-bədii və ədəbiyyatşünaslıq əsərləri kontekstində ədəbi prosesi araşdırmaq, müxtəlif dövrlərdə ədəbiyyatımızda baş verən yenilikləri, sosializm realizmi yaradıcılıq metodunun tələbləri altında şair və yazıçılarımızın qarşısına qoyulmuş maneə və qadağaları,

---

2 Məmmədov, İ. Qəzet dilinin leksikası: / (1960-70-ci illərin “Kommunist” qəzetinin materialları əsasında). İ.Məmmədov,- Bakı: Elm və təhsil, - 2010. - 161 s.

3 Məhərrəmov E. “Xalq qəzeti”nin (“Kommunist”) yaranması və inkişafı tarixindən. Nəşrinin 90 illiyi münasibətilə / E.Məhərrəmov, A.Məhərrəmli. – Bakı: Elm və təhsil, - 2009. - 88 s.

4 Əsgərzadə, L. Əhməd Triniç / L.Əsgərzadə, - Bakı: Elm və təhsil, - 2020. - 210 s.

ədəbiyyatşünasların ədəbi prosesə müsbət və mənfi təsirini üzə çıxarmaq və qəzetdə dərc edilən əsərləri obyektiv qiymətləndirməkdən ibarətdir. Bu tələbdən irəli gələrək dissertasiyada aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

– "Kommunist" qəzetinin nəşrə başlandığı ilk illərdə milli düşüncəli şair və yazıçılarımızın məruz qaldıqları təhdid və təzyiqlərin səbəblərini göstərmək;

– Əski əlifba ilə qəzetdə dərc olunan ədəbi-bədii nümunələri kompleks şəkildə tədqiqata cəlb etmək;

– Qəzetlə əməkdaşlıq edən repressiya dövrü ədəbiyyatımızın tanınmış nümayəndələrinin üzləşdiyi çətinliklər barədə məlumat vermək;

– "Kommunist" qəzetində dərc edilən nümunələr əsasında Böyük Vətən müharibəsi illərinin ədəbiyyatı və qəzetdə dərc edilən Cənubi Azərbaycan mövzusuna aid əsərləri ayrıca tədqiqat obyekti kimi araşdırmaq;

– Qəzet materialları əsasında müharibədən sonrakı dövrdə Azərbaycan ədəbiyyatına yeni mövzuların gəlişi və tənqidçilərin bu sahəyə diqqətini öyrənmək və s.

**Tədqiqatın metodları.** Dissertasiya işində aşağıdakı empirik və nəzəri tədqiqat metodlarından istifadə edilmişdir:

– faktların toplanması və sistemləşdirilməsi;
– sistemli analitik təhlil və şərhlər;
– problemlərə kompleks yanaşma, tarixilik prinsipi;
– ümumiləşdirmələr əsasında elmi nəticələrin əldə edilməsi.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqat nəticəsində əldə edilən və müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

– "Kommunist" qəzetində dərc edilən materialların, o cümlədən də ədəbiyyat və ədəbiyyatşünaslıqla bağlı olan materialların əsas hissəsi sovet ideologiyasının tələbləri ilə bağlı olsa da, Azərbaycanda mədəniyyətin və maarifin, poeziyanın inkişafında da əhəmiyyətli rolu olmuşdur.

– Mövhumatla mübarizə və əhalinin kütləvi surətdə savadlanmasında ziyalılarımızın imkanlarının səfərbər olunmasında da "Kommunist" qəzeti müsbət rol oynamışdır.

– Azərbaycan dilinin və ədəbiyyatının inkişafı və zənginləşməsi

yolunda qəzet əməkdaşları yorulmadan çalışmışlar.

– Qəzet orqanı olduğu təşkilatın siyasətini həyata keçirməyə məcbur olsa da, onun səhifələrində ədəbi məqalələri və bədii əsərləri dərc edilən bir çox müəlliflər öz xalqının milli maraqlarını da heç vaxt unutmamış və bunun da nəticəsində onlardan bəziləri "millətçi-burjua nümayəndələri" adı altında cəzalandırılmışlar.

– Qəzet ziyalılarımızın ən savadlı nümayəndələrini öz ətrafında birləşdirməklə xalqımızın mədəni yüksəlişində, ədəbiyyatımızın inkişafında onların istedad və bacarığından səmərəli şəkildə istifadə edilməsinə şərait yaratmışdır. Azərbaycanın aparıcı şair və yazıçıları "Kommunist" qəzetinin səhifələrində müxtəlif ədəbi-nəzəri məsələlərlə bağlı da tez-tez çıxışlar etmişlər.

– Təəssüf ki, qəzetin səhifələrində ayrı-ayrı sovet ideoloqları tərəfindən bir sıra milli şairləri tənqid edən məqalələr də dərc edilmişdir.

– Qəzetdə dərc olunan şairlərin bir qismi sırf bolşevik ideologiyasının tələbləri əsasında yazdıqlarına görə onların əsərləri yüksək bədii məziyyətləri ilə seçilmirdi.

**Tədqiqatın elmi yeniliyi. Bu dissertasiyada:**

– "Kommunist" qəzetində yetmiş bir illik dövrdə dərc olunmuş yüzlərlə bədii nümunə araşdırmaya cəlb edilir və onlara müasir baxış bucağından qiymət verilir;

– 1920-ci ildən İkinci Dünya müharibəsi dövrünədək qəzetdə dərc edilən felyetonların mövzusu, tənqid hədəfləri tədqiq edilir;

– Əski əlifba ilə qəzetdə çıxan materiallar kompleks şəkildə öyrənilir;

– Ötən əsrin 20-ci illərin sonu, 30-cu illərin əvvəllərindən başlayaraq ədəbiyyatda "düşmən" axtarışları, yazıçı və şairlərin təqib edilməsi "Kommunist" qəzetinin materialları əsasında sistemli şəkildə araşdırılır;

– Repressiya qurbanları olan görkəmli sənətkarlarımızın ləyaqətlə yaşamaq uğrunda mübarizəsi, onların əsərlərinin çap olunması ilə bağlı tələblər və qoyulan yasaqlar barədə məlumat verilir;

– İkinci Dünya müharibəsi ərəfəsində və Böyük Vətən müharibəsi dövründə ədəbiyyat xadimlərinin qəzetdə qəhrəman Azərbaycan oğullarının tərənnümünə həsr etdikləri əsərlər nəzərdən keçirilərək dəyərləndirilir;

– Qəzetdə Cənubi Azərbaycan mövzusunda yazılmış əsərlər ayrıca tədqiq edilir;

– Nizami Gəncəvinin 800 illik yubileyi ilə bağlı qəzetdə dərc olunmuş əsərlər haqqında kompleks şəklində araşdırma aparılır;

– Qəzet materialları əsasında Böyük Vətən müharibəsindən sonrakı dövrdə ədəbi tənqidin səciyyəvi cəhətləri, altmışıncı illərdə ədəbiyyata gələn yeni ədəbi qüvvələr və onlara yaradılan süni maneələr barədə danışılır;

– Qəzetdə Qarabağ mövzusu, qaçqın və məcburi köçkünlərin ağrılı problemlərinə həsr edilmiş əsərlər tədqiqata cəlb olunur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.**

– Dissertasiya nəzəri yanaşma üsulları və gəldiyi qənaətlərlə sovet dövrü –1920–1991-ci illər ədəbiyyatının öyrənilməsi istiqamətində gələcək tədqiqat əsərləri üçün mənbə ola bilər;

– Müxtəlif mətbuat orqanlarında ədəbiyyat və sənət məsələləri ilə bağlı yazılacaq dissertasiya və monoqrafiyalarda bu əsərdən istifadə edilə bilər;

– XX əsr Azərbaycan mətbuat tarixinin və çoxcildlik Azərbaycan ədəbiyyatı tarixinin müvafiq cildlərinin yazılmasında bu əsərin də müəyyən rolu ola bilər;

– Ali məktəblərin filologiya və jurnalistika fakültələrinin tələbələri, mətbuatda və elmi-pedaqoji sahələrdə fəaliyyət göstərənlər bu əsərdən faydalana bilərlər.

**İşin aprobasiyası və tətbiqi.** Tədqiqat işinin başlıca məzmunu, müddəaları, elmi yenilikləri, yekunları və nəticələri müəllifin məqalə və tezislər şəklində Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu elmi jurnal və məcmuələrdə, xarici elmi nəşrlərdə və beynəlxalq konfrans materiallarında çap etdirdiyi “Böyük Vətən müharibəsi illərində “Kommunist” qəzetində poeziya”, ““Kommunist” qəzetində repressiya illərində ədəbiyyat və tənqid (1936–1937)”, “Nizami Gəncəvinin əsərlərinin Azərbaycanda tədqiqi tarixi”, “Azərbaycan mətbuatında sovet dövründə türkdilli xalqların ədəbiyyatı”, “Cənubi Azərbaycan mövzusu “Kommunist” qəzetində (1945–1959)”, “Əlişir Nəvainin yaradıcılığı XX əsrin mətbuat səhifələrində (1941–1968)” (beynəlxalq konfrans materialı), “Nazim Hikmət yaradıcılığı ötən əsrin mətbuat

səhifələrində ("Kommunist" qəzeti 1932–1957)" və "Azərbaycan və özbək ədəbi əlaqələri "Kommunist" qəzetinin səhifələrində" adlı əsərlərində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Prezidentinin yanında Ali Attestasiya Komissiyası tərəfindən qoyulan tələblərə uyğun olaraq yazılmış disseratsiya işi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin "Yeni və müasir Azərbaycan ədəbiyyatının tədqiqi və təqdimi şöbəsi"ndə yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş (13 455 işarə), 3 fəsil (I fəsil – 79 717 işarə (1.1. – 38220, 1.2 – 41497), II fəsil – 87495 işarə (2.1. – 27284, 2.2. – 15967, 2.3. – 17890, 2.4. – 26354), III fəsil – 84311 işarə (3.1. – 40746, 3.2. – 34443, 3.3. – 9080), nəticə (6120 işarə) və ədəbiyyat siyahısından ibarətdir. İşin ümumi həcmi 271098 işarə sayıdır.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Giriş"** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsindən bəhs edilmiş, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları müəyyən edilmiş, müdafiəyə çıxarılan əsas müddəalar göstərilmiş, dissertasiya işinin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti əsaslandırılmışdır.

**"Nəşr fəaliyyətinin ilk onilliklərində "Kommunist" qəzetində ədəbiyyat məsələləri (1919–1930-cu illər)"** adlanan birinci fəsil iki paraqrafdan ibarətdir. **"Sovet ideologiyasının təsiri ilə yaranan ədəbi-bədii nümunələr "Kommunist"in səhifələrində"** adlı birinci paraqrafda ötən əsrin əvvələrində Azərbaycanda baş verən siyasi dəyişikliklər nəticəsində bolşeviklərin hakimiyyəti zorla ələ keçirməsi, öz ideyalarını əhali arasında yaymaq üçün mətbuatın gücündən istifadə etməsi, yeni əlifba islahatlarına hazırlıq işləri və digər məsələlərdən danışılır. Bildirilir ki, Çar Rusiyası ərazisində müstəqilliklərini elan edən milli respublikalar, o cümlədən Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay fəaliyyət göstərdikdən sonra bolşeviklər tərəfindən devrildi. 1920-ci ilin aprelindən başlayan, otuzuncu illərin əvvəllərindən daha geniş istiqamətdə hücuma keçən "qırmızı terror" totalitar ideologiyanın ölüm

kabusu kimi istiqlal düşüncəsinə, milli məfkurəyə, demokratik ideyalara və bu ideyaların daşıyıcısı olan insanlara qarşı çevrildi. Bolşevik hakimiyyəti nə qədər cəhd göstərsə də, mövcud olduğu qısa dövrdə millətin tarixinə işıq saçan Cümhuriyyətin milli özünüdərk, istiqlal və demokratiya ənənələrini tam sürətlə qırmaq, məhv etmək mümkün olmadı.

1920-ci illərdə "Kommunist" qəzeti səhifələrində müzakirə obyektinə çevrilən məsələlərdən biri də yeni əlifbaya keçid məsələsi idi. Belə ki, həmin dövrdə türkdilli xalqlar arasında əlifba birliyinin olmaması mütərəqqi ziyalıları düşündürən başlıca məsələlərdən idi. Xalid Səid doğru olaraq yazırdı: *"Bizə bir-birinə yaxın dildə danışan türk-tatar xalqlarını öz ətrafına toplayıb hərf və mədəniyyət yolu ilə sürətlə irəlilədəcək bir əlifba lazımdır"*[5].

1922-ci ildə Azərbaycan hökumətinin qərarı ilə yaradılmış "Yeni türk əlifba komitəsi"nin səyləri nəticəsində 1923-cü ildən etibarən latın qrafikası əsasında hazırlanan əlifbaya keçmə prosesi sürətlənmiş, bu isə yeni əlifbaya keçidlə bağlı tərəddüd edən türkdilli xalqların daha mütəşəkkil fəaliyyətinə təkan vermişdi.

"Giriş"də qeyd etdiyimiz kimi, "Kommunist"in 1919-cu ildə gizli şəkildə çıxmış ilk nömrəsini Ruhulla Axundov redaktə etmiş və qəzet ilk nömrədən sonra qapadılmışdır. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra 1920-ci ilin aprel ayının 30-da qəzet fəaliyyətini bərpa etmiş və leqal şəkildə çıxan "Kommunist"in ilk redaktoru Əliheydər Qarayev olmuşdur. Sonrakı illərdə qəzetə Ağababa Yusifzadə (1920–1921), Böyükağa Talıblı (1921), Həbib Cəbiyev (1921–1922; 1923-1927), Ruhulla Axundov (1922–1923); Yusif Qasımov və Əhməd Triniç (1927–1931), Yunis Hacıyev (1931–1941), Rza Quliyev (1941–1944; 1949–1953), Ağababa Rzayev (1945, 1953–1955; 1963-1980), Əli Vəliyev (1945–1949), Xasay Vəzirov (1955–1958), İsrafil Nəzərov (1958–1963), Rəşid Mahmudov (1980–1987), Ramiz Əhmədov (1987–1988), Cəmil Əlibəyov (1988–1990), Tofiq Rüstəmov (1990–1991) redaktorluq etmişlər. Qəzetin ən sanballı dövrü 1963–1980-ci illəri əhatə edir. Heydər Əliyevin Azərbaycan KP MK-ya

---

[5] Xalid, Səid. Yeni əlifba yollarında əski xatirə və duyğularım / Səid Xalid. – Bakı: Yeni əlifba komitəsi, - 1929. - s. 21.

rəhbərlik etdiyi dövrlərdə Ağababa Rzayevin redaktorluğu ilə çıxan "Kommunist"in nüfuzu qat-qat artmışdı. Qəzetdə cəmiyyətdəki nöqsanlar, idarə və müəssisələrdəki çatışmazlıqlar haqqında kəskin tənqidi yazılar dərc edilir, qəzetdə qaldırılan problemlərlə bağlı Mərkəzi Komitədə xüsusi iclaslar keçirilirdi. Qəzetin müxbirləri Tofiq Həsənov, Sadıq Qarayev, Əli İldırımoğlu və başqaları qələmə aldıqları materiallarla "Kommunist"ə böyük nüfuz qazandırırdılar.

Xalqımızın görkəmli ziyalıları Məmməd Səid Ordubadi, Tağı Şahbazi, Məhəmmədəli Sidqi, Şəmsəddin Abbasov, Süleyman Məlikov, Xəlil İbrahimov, Hüseyn Cavid, Üzeyir Hacıbəyli, Cəlil Məmmədquluzadə, Bəkir Çobanzadə, Salman Mümtaz, Ömər Faiq Nemanzadə, Əliabbas Müznib Mütəllibzadə, Əbdürrəhim bəy Haqverdiyev, Cəfər Cabbarlı və başqaları "Kommunist" qəzeti ilə mütəmadi əməkdaşlıq edirdilər.

Qəzetin ilk illərindəki poeziya nümunələrində 1920-ci illərdən başlayaraq Azərbaycanda sovet hakimiyyəti qurulana qədər bəylərin və xanların zülmündən inləyən hüquqsuz, sadə insanların əməyinin yetərincə qiymətləndirilməməsi tənqid olunur, gənclərin dövlət quruculuğu və vətənin müdafiəsinə hazır olmalarına çağırışlar edilir, dini adət-ənənələrin, din xadimlərinin ələ salınması və digər məişət məsələləri diqqətə çatdırılırdı. *"Bu illərdə bir çox sənətkarların başına endirilən "qırmızı sovet çəkicləri" həmin sənətkarları milli ədəbiyyat platformasından çıxarıb proletar platformasına keçirmək məqsədi daşıyırdı. Siyasi rejim milli ədəbiyyata qarşı mübarizəni nə qədər barbar üsullarla aparsa da, milli ədəbiyyat yaranır və ədəbi prosesin faktına çevrilirdi"*[6].

Fəslin poeziya bölməsinə aid səhifələrində Balaqədeş Səttaroğlu, Hüseyn Cavid, Maqsud Şeyxzadə, Məmməd Səid Ordubadi, Əhməd Cavad, Bayraməli Abbaszadə və digər şairlərin əsərləri təhlil edilir. Qeyd olunur ki, Hərdəmxəyalın "Balaca felyeton"unda casusluq erməni xalqının bütün təbəqələrinin, hətta din xadimlərinin səciyyəvi cəhəti olmuşdur. Onlar yüz illər boyu köçürülərək məskunlaşdıqları ərazilərdəki xalqların mədəniyyətini oğurlamaq, siyasi xadimlərini terror

---

6 Salamoğlu, T. Müasir Azərbaycan ədəbiyyatı / T.Salamoğlu. – Bakı:[314 s.n.] - 2012. – s. 13.

yolu ilə aradan götürməklə məşğul olmuşlar. Ermənilər bu minvalla türk xalqlarının birliyini pozmağa, onları içəridən parçalamağa can atıblar:

*Nə qədər xidmət edib dində, şəriətdə keşiş,*
*İndi də xidmət edir tazə hökumətdə keşiş.*
*Bir zaman Əbdülhəmid etmiş idi bunları "şad",*
*İndi də başda durar bir katolik pak "neyad"*[7].

"Kommunist"in nəşrə başladığı ilk illərdə qəzet səhifələrində dərc edilən nəsr nümunələrində isə yeniyetmə qızların erkən yaşlarından ərə verilməsi, qadın azadlığı, Azərbaycanda sovet hakimiyyətinin möhkəmləndirilməsi, din xadimlərinin gözdən salınması kimi məsələlər diqqətdə saxlanılırdı. Hüseyn Necdətin "Uşaqmış" [8] hekayəsində yuxarıda qeyd edilən məsələlər ətraflı təsvir edilmişdir. Hekayədə yenicə on üç yaşı tamam olan Güllünün ərə getməyə tələsməsi, evlərinə gələn qadınların onu anası Zeynəbdən oğullarına istəməsi təsvir olunur. Müəlliminin israrla bu izdivaca qarşı çıxmasına baxmayaraq, 13 yaşlı Güllünü anası Zeynəb ərə verir və bir müddətdən sonra onlar boşanırlar.

Beləliklə, qəzetin ərəb qrafikası ilə çixan dövründə Azərbaycanda sovet hakimiyyəti qurulana qədər sadə insanların əməyinin yetərincə qiymətləndirilməməsindən bəhs olunan bədii nümunələrlə daha çox rastlaşırıq. Qəzetdəki yazıların bir çoxunda Partiyanın yürütdüyü siyasətlə ayaqlaşmayanların müxtəlif damğalarla gözdən salınmasının, onların yaradıcılığına, əsərlərinin nəşrinə əngəllər törədilməsinin də şahidi oluruq.

**"XX əsrin iyirmi-otuzuncu illərdəki ədəbi proseslərin qəzetdə əksi"** adlanan ikinci paraqrafda həmin dövrlərdə qəzetdə dərc olunan ədəbiyyatşünaslıq məsələlərinə həsr olunmuş əsərlər təhlil edilir, sovet ədəbiyyatının formalaşmasında başlıca istiqamətlər üzə çıxarılır. Qeyd olunur ki, dilin saflığı uğrunda mübarizə, ədəbi dilin ərəb-fars sözlərindən təmizlənməsi, bədii ədəbiyyatın, xüsusilə şeirlərin sadə danışıq dilində yazılması qəzetin ilk nömrələrindən diqqət mərkəzində

---

[7] Hərdəmxəyal. Bugünkü teleqraflardan: (şeir) // "Kommunist" qəzeti. – 1924, 8 iyun. – s. 3

[8] Necdət, Hüseyn. Uşaqmış: (hekayə) // "Kommunist" qəzeti. – 1926, 6 sentyabr. – s. 3.

saxlanılmağa başlandı. Əli Razinin (Əli Məşədi Yəhya oğlu Şəmçizadə) "Əlifbamızı düzəltməkdənsə dilimizi düzəltməyə çalışalım"[9] məqaləsi də məhz bu mövzuya həsr olunmuş, məqalədə Azərbaycan dilinin ərəb-fars sözlərindən təmizlənməsi, ana dilimizin saflığı uğrunda tədbirlərin görülməsi kimi vacib məsələlərə toxunulur.

Görkəmli ziyalılarımıza qarşı təqib və təzyiqlərin artmağa başladığı bir dövrdə Əliheydər Qarayevin "Böylə tənqid olmaz"[10] məqaləsi işıq üzü görür. Bu məqalədə Ə.Qarayev dövrün ədəbi qüvvələrinin yersiz sıxışdırılması, xalqa xidmət edən yazıçı və şairlərin düşmən cəbhəsinə işləməkdə suçlandırılmasının yolverilməz olduğunu vurğulayır.

Həmin dövrdə qəzet səhifələrində dərc olunan bir sıra yazılarda Hüseyn Cavid, Əhməd Cavad, Səməd Vurğun, Cəfər Cabbarlı, Mikayıl Müşfiq, Nigar Rəfibəyli və digər yazıçı və şairlərin əsərləri təftiş olunur, yazıların müəllifləri onları yaradıcılıqlarında partiya və hökumətin yürütdüyü siyasəti fəal şəkildə təbliğ etməyə çağırırdılar.

İkinci fəsil **"II Dünya müharibəsi və sonrakı quruculuq illərində Azərbaycan ədəbiyyatının "Kommunist" qəzetində əksi"** adlanır.

**"Müharibə və müharibədən sonrakı illərin poeziyası və nəsri"** adlanan birinci fəsildə bildirilir ki, müharibə başlayandan qurtaranadək Azərbaycan şair və yazıçılarının qəzetdə dərc edilən əsərlərinin əksəriyyətində vətən oğullarının cəbhədə göstərdikləri igidliklər tərənnüm olunur, xalqı faşizm bəlasına qarşı birləşməyə çağırışlar, arxa cəbhədə insanların göstərdiyi fədakarlıqlar bu əsərlərin əsas mövzusunu təşkil edirdi. R.Rzanın "Bəxtiyar", "Vətən müharibəsi döyüşçülərinə", Məmməd Rahimin "Vətən çağırır", "Üç qardaş", "Azərbaycan oğullarına", "Dağlıların sözü", "Neft dastanı", Cəfər Xəndanın "Bu il düşmən əziləcək", "Komissar", "Kazak qardaşlarıma", Süleyman Rüstəmin "Sağ ol" deyə milyon əl çiçək atar ona", "Ana ürəyi", "Ana və poçtalyon", "Döyüşçüyə məktub", "Qafqaz oğullarına", "Gün o gün olsun ki", "Stalinqrad", "İldırım", Səməd Vurğunun "Yanğın", "Partizan

---

[9] Əli Razi. Əlifbamızı düzəltməkdənsə dilimizi düzəltməyə çalışalım // "Kommunist" qəzeti. – 1921, 28 sentyabr. – s. 3

[10] Qarayev, Ə. Böylə tənqid olmaz // "Kommunist" qəzeti. – 1929, 15 fevral. –s. 3.

Babaş üçün", M.Bipərvanın "Yumbalanıb düşər çaya", "Aman, dadıma gəl", Əhməd Cəmilin "Əsgər qardaşlarıma", "Qafqaz oğullarına", "Vətən oğluna" və başqa şeirlərdə müharibənin törətdiyi faciələr, xalqın qələbəyə olan inamı, vətən oğullarının döyüşlərdə göstərdikləri rəşadətlər öz əksini tapmışdır. Məsələn, Məmməd Rahimin "Qızıl əsgərə məktub" şeiri bu ruhda olan əsərlərdəndir. Şeirdə oxuyuruq:

*Fikrimiz, xəyalımız hər zaman yanındadır,*
*Döyünən ürəyimiz döyüş meydanındadır.*
*Biz səndən arxayınıq, sən bizdən ol arxayın,*
*Əlinlə döyülərkən hər müxənnət, hər xain.*[11]

Böyük Vətən müharibəsi başa çatdıqdan sonra ədəbiyyatda yeni mövzular, yeni ədəbi qüvvələr meydana gəlməyə başladı. Əli Salehin "Gözəl Vətən", İslam İbrahimovun "Çıraqlar", Bəxtiyar Vahabzadənin "Əbədiyyət sarayı", Süleyman Rüstəmin "Gəl", "Ürək sözü", Qabil Nikbinin "Şəlalə", Əli Nəzminin "Bu gün", "Sabitqədəm yoldaş", "Kooperativçi" imzası ilə çap olunan "Məlikov", B.Adilin "Üzeyir Hacıbəyova", Əhməd Cəmilin "Mingəçevir ulduzları", Allahverdi İmanovun "Mingəçevir qurucularına", Novruz Gəncəlinin "Dağlar səslənir", M.Rahimin "Cənublu qardaşlarıma", Ağasəlim Fədainin "Dörd il" şeirlərində, əsasən, müharibədən sonrakı quruculuq məsələləri önə çəkilir.

İkinci fəslin ikinci paraqrafı **"Ədəbiyyatşünaslıq məsələləri qəzetin səhifələrində"** adlanır. "Kommunist" qəzetində haqqında söhbət gedən illərdə poeziya, nəsr nümunələri ilə yanaşı, ədəbiyyatşünaslıqla bağlı kifayət qədər əsərlər də çap olunmuşdur.

Qəzetdə mükəmməl bədii nümunələrə yanaşı zəif, mənasız söz yığnağı olan "nəzm" parçalarının verilməsi narahatlıq doğurur, "Şeir, yoxsa cəfəngiyyat" adlı müəllifi göstərilməyən məqalədə həmin dövrdə rayon qəzetlərinin birində dərc olunmuş "Qadınlar keçmişdə və indi" sərlövhəli şeirdən aşağıdakı misralar misal gətirilərək bu cür əsərlər tənqid olunurdu.

---

[11] Rahim M. Qızıl əsgərə məktub: (şeir) // "Kommunist" qəzeti. – 1941, 3 mart. – s. 3.

*Kişi-qadın qüvvələri kommunizm əsasıdır,*
*Həqiqətən sovet dövrü elmdə, siyasətdə,*
*Bir sayıldı kişi-qadın hüquqda, mədəniyyətdə.*[12]

Artıq müharibənin başa çatması ədəbiyyatımızda nisbətən arxa plana keçmiş ədəbi tənqidin də yenidən fəallaşmasına zəmin yaratdı. Dərc edilən məqalələrdə son dövrlər ədəbiyyata gələn gənclərin yaradıcılığı təhlil edilir. Qeyd edilir ki, yeni ədəbiyyata gələn qüvvələrin yaradıcılığında gəncliyin təmiz, bakir duyğuları çırpınır, vətənimizə qarşı dərin bir məhəbbət yaşayır. Gənc şairlərdən Nəbi Babayev, Bəxtiyar Vahabzadə, Adil Babayev, Cəmil Valeh öz hisslərini ümumi söz və təşbehlərlə deyil, müəyyən mövzular ətrafında verirdilər. B. Nəbinin "Əlağacı", B.Vahabzadənin "Hisli çıraq", B.Adilin "Bahar gələndə", Hüseyn Abbaszadənin "İki dost", C.Valehin "Tonqal" şeirləri buna misal ola bilər.

İkinci fəslin üçüncü paraqrafı **"Kommunist" qəzeti və Cənubi Azərbaycanda ədəbi proses"** adlanır. Bu paraqrafda isə müharibədən sonrakı illərdə Cənubi Azərbaycanda yaradılan Milli Hökumət və onun İrandakı soydaşlarımızın milli oyanışındakı rolu barədə danışılır. Cənubi Azərbaycan mövzusu "Kommunist" qəzetində 1945–1950-ci illərdə daima diqqətdə saxlanılmış, şair və yazıçılarımızın yaradıcılığında geniş əks etdirilmişdir. Bu əsərlərdə, ilk növbədə ikiyə bölünmüş xalqın nisgili, Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın üzləşdiyi ağır şərait, İran rejiminin onlara qarşı apardığı mürtəce siyasət, milli azadlıq ideyalarının boğulması kimi hiss və duyğular əsas mövzulardan idi.

İkinci fəslin dördüncü paraqrafı **"Nizami Gəncəvinin əsərlərinin tədqiqi, təbliği və nəşri qəzetin əsas mövzularından biri kimi"** adlanır. Bu paraqrafda dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Kommunist" qəzetində əsərlərinin nəşri və tədqiqi məsələlərinə toxunulur. Qeyd edilir ki, Azərbaycanda Nizami Gəncəvinin əsərlərinin nəşri 1907-ci ildən başlansa da, şairin bədii irsinin Azərbaycanda öyrənilməsi, əsasən XX əsrin 40-cı illərindən başlanır. 1939-cu ildə Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyi ərəfəsində şairin əsərlərinin elmi tədqiqi və tərcüməsi işlərinə start verilmişdir. Yevgeni

[12] Şeir, yoxsa cəfəngiyyat! // "Kommunist" qəzeti. – 1946, 9 aprel. – s. 3.

Bertels, Mikayıl Rəfili, Həmid Araslı, Məmməd Mübariz, Mirzə İbrahimov, Cəfər Xəndan, Mir Cəlal və digər alimlər tərəfindən şairin elmi araşdırmaya cəlb edilən əsərlər haqqında həmin dövrdə qiymətli tədqiqatlar meydana gəlmişdir.

**"İctimai-siyasi mühitin yumşalmasından sonrakı ədəbi proses"** adlanan üçüncü fəsil üç paraqrafdan ibarətdir. Birinci paraqraf "**Şəxsiyyətə pərəstiş dövründən sonrakı poeziya və nəsr qəzetin sütunlarında"** adlanır. Bu paraqrafda altmışıncı illərdə Azərbaycan ədəbiyyatında baş verən yeniləşmə, müxtəlif şair və yazıçıların üzləşdiyi problemlər, siyasi hakimiyyətin dəyişməsindən istifadə edərək ədəbiyyata gətirilən yeni mövzular və sair məsələlər təhlil edilir. Stalinin vəfatından sonra yazılan əsərləri təhlil etdikcə ədəbiyyatımızda xeyli müsbət dəyişikliklərin baş verdiyinin şahidi oluruq.

Hüseyn Hüseynzadənin aşağıda qeyd edilən şeiri səmimi hisslərin təsiri ilə qələmə alınmışdır. Şair *"Bahar gələndə"* şeirində yazın gəlişi ilə təbiətin oyanması, çeşmələrin qaynaması, suların durulması, quşların cəh-cəh vurması ilə insana xoş ovqat bəxş etdiyini diqqətə çatdırır. Burada müəllif, sanki baharın insan ömrünə gətirdiyi sevinci, unudulmaz anları bir daha yaşayaraq qələmə alır. Şair ötən uşaqlığını, ötən gəncliyini baharın geri qaytarmasını arzulayır.

*Xəyalın, ilhamın yoxdu dincliyi,*
*Könül, fikr etmə ki, saçlarım ağdır.*
*Ötən uşaqlığın, ötən gəncliyin,*
*Bahar elə bil ki, qayataracaqdır.* [13]

Nigar Rəfibəylinin *"Çağa"* şeirində isə ilk baxışdan körpə uşağın ağlaması və gecələr ailədə yaratdığı narahatlıqdan, bununla belə gələcəyə olan ümiddən söz açsa da, şair burada azadlığı xüsusi vurğulayır. Vətəni Azərbaycanı– cəmi 23 ay yaşamış Azərbaycan Xalq Cümhuriyyətini əli, qolu bağlı bir çağaya bənzədən N.Rəfibəyli fidan balanın dünyaya səslənərək haqq-ədalət axtardığını söyləyir:

---

[13] Hüseynzadə, H. Bahar gələndə: (şeir) // "Kommunist" qəzeti. – 1956, 18 mart. – s. 3.

*Hələ dan yeri ağarmamış,*
*əfsanəvi gecə,*
*Qısa ömrünü qurtarmamış,*
*ağ bir bükülü içindən,*
*Xırdaca bir varlıq bağırtıyla oyanır.*
*Nə yorğunluq bilir nə sükut qanır.*
*O, azadlıq istəyir,*
*əl qolunu çıxardıb qundaqdan.*
*Çabalamaq istəyir,*
*varlığını elan edib dünyaya*
*Canlılar aləmində*
*özünə haqq istəyir* [14] .

Üçüncü fəslin ikinci paraqrafında "**Tənqidin ədəbi prosesi qiymətləndirməsində yeni yanaşmalar"**dan bəhs edilir. Süleyman Rüstəmin "Poeziyamızda yüksək sənətkarlıq uğrunda"[15], M.Arifin "Şeirimiz haqqında bəzi qeydlər", A.Zamanovun "Kolxoz kəndi haqqında roman", "Günün tələbləri səviyyəsinə" və digər məqalələrdə Azərbaycan ədəbiyyatında baş verən yeniliklər, partiyanın tapşırığı ilə şair və yazıçıların əsərlərinə qoyulan qadağalar, yersiz tənqidlər qəzet səhifələrindən toplanaraq diqqətə çatdırılır.

Ötən əsrin 50-ci illərin sonu, altmışıncı illərin əvvəllərində artıq şairlərimizin yeni şeirlərində Stalin dönəmində olduğu kimi, partiyaya, Leninə, Stalinə yerli-yersiz təriflər yağdırmaq müşahidə edilmir. Bu dövrün ədəbi nümunələrində gözə çarpan müsbət meyillər milli xüsusiyyətlər nəzərə alınaraq mənəvi dəyərlərin ön plana çıxarılması, xüsusilə insan və təbiət, insan və cəmiyyət arasındakı harmoniyanın ədəbiyyata gətirilməsindən ibarətdir. Həmin səciyyəvi cəhətlər Azərbaycan ədəbiyyatında heç də asan meydana çıxmamışdır.

Ədəbi tənqid daim yeni əsərləri təftiş edir və "nöqsanlar" axtarıb yeniliyə, ədəbiyyatda baş verən müsbət meyllərə əngəl olmağa çalışırdı.

---

[14] Rəfibəyli, N. "Çağa" (şeir) // "Kommunist" qəzeti, - 1961, 22 dekabr. - s. 3.
[15] Rüstəm, S. Poeziyamızda yüksək sənətkarlıq uğrunda // "Kommunist" qəzeti. – 1954, 15 aprel. – s. 3.

Yuxarıda qeyd olunanlarla yanaşı, ədəbi tənqid sahəsində boşluqların olduğu hər zaman qəzetin diqqətində saxlanılır. Tədqiqatımızdan aydın olur ki, 60-cı illərdə yüksək ixtisaslı, təcrübəli tənqidçilər indi sırf ədəbiyyat tarixi sahəsinə keçdiyinə görə, müasir ədəbi problemlərə az fikir verirlər. "Ədəbiyyat və incəsənətin partiyalılığı və xəlqiliyi uğrunda"[16] qəzet məqaləsində qeyd olunur ki, bu da çox pisdir ki, təcrübəli, yaşlı yazıçılardan bir çoxu özlərini tənqid fövqündə sayıb, öz əsərləri haqqında kiçik iradı belə həyəcanla, hücumla, kinlə qarşılayır, müxtəlif yollarla bu tənqidi yalana çıxarmağa çalışırlar.

Üçüncü fəslin üçüncü paraqrafı **"Kommunist" qəzetində dərc olunmuş bədii əsərlərdə Qarabağ mövzusu (1980-1991)"** adlanır. Bu paraqrafda Qarabağ mövzusunun qəzet səhifələrində işıqlandırılması, şair və yazıçılarımızın bu mövzuda qələmə aldıqları əsərlər konkret nümunələr əsasında təhlil edilir. Araşdırmamızdan aydın olur ki, ilk vaxtlar onlar sovet rejiminin təqiblərindən çəkinərək yazdıqları vətənpərvərlik ruhlu şeirləri mətbuatda dərc etməyə tələsmirdilər. Çünki sovet ədəbi mühiti, tənqidçiləri onlardan beynəlmiləl ruhlu, xalqlar dostluğunu tərənnüm edən əsərlər yazmağı tələb edirdi. Lakin ermənilərin torpaqlarımıza qarşı iddiaları artdıqca, ölkədə gedən siyasi proseslərin iştirakçısı olan hər bir şair və yazıçı öz mövqeyini ortaya qoymaqdan çəkinmir, illərdən bəri qəlblərinin dərinliklərində gəzdirdikləri milli ruh, doğma torpağa məhəbbət kimi duyğuları ədəbiyyata gətirməyə başlamışdılar.

N.Xəzri, T.Bayram, C.Novruz, H.Abbas, C.Əlibəyli və digər ədiblərimizin Qarabağ mövzusunda qəzetin səhifələrində dərc etdirdikləri əsərləri bu qəbildən olan ədəbi nümunələrdir.

Dağlıq Qarabağ ətrafında başlayan erməni iddiaları, vətən övladlarımızın ağrı-acısı bu problem başlayan gündən şair və yazıçılarımızın ən çox müraciət etdiyi mövzulardan olmuş, xalqımızın öz dədə-baba torpaqlarının hər qarışı uğrunda apardığı mübarizələr bədii əsərlərimizdə əksini tapmışdır. Məsələn, Tofiq Bayramın "And içirəm", Həmid Abbasın "Aşkar danış, doğru yaz!", Cabir Novruzun "Yetər, dayanın, yetər", Yusif Həsənbəyin "Hərəsi bir misri qılınc", Xəlil Rza

[16] Ədəbiyyat və incəsənətin partiyalılığı və xəlqiliyi uğrunda // "Kommunist" qəzeti. –1963, 23 mart. – s. 2-4.

Ulutürkün “Susuzluqda bitən ağac” şeirləri, İsi Məlikzadənin “Beydulla Buş və Seyfulla Səddam”, Cəmil Əlibəyovun “Qərib vətən, təzə yurd” hekayələrində erməni millətçilərinin torpaqlarımızda törətdikləri vəhşiliklərə etiraz, xalqımızın bir yumruq kimi birləşərək torpaqlarımızın müdafiəsinə səsləmələrinin şahidi oluruq.

Yuxarıda qeyd olunan əsərlərilə xalqı milli birliyə, Vətən torpaqlarının hər qarışı uğrunda mübarizəyə səsləyən şair və yazıçılarımız bugünkü baxış bucağından elmi araşdırmaya cəlb edilməyə layiqdir.

Dissertasiya işinin **“Nəticə”** hissəsində tədqiqat boyu aparılan araşdırmalardan əldə olunan elmi-nəzəri qənaətlər aşağıdakı qaydada ümumiləşdirilmişdir:

1. Sovet dönəmində Azərbaycan xalqının xarici mühitlə bütün əlaqələrinin kəsilməsi, şair və yazıçıların qarşısında sosializm realizminin tələbləri baxımından əsərlər yaratmaq vəzifələrinin qoyulduğu bir şəraitdə çətinliklərə sinə gərərək milli ədəbiyyatımızı inkişaf etdirmək yazıçılardan böyük cəsarət tələb edirdi. “Kommunist” qəzetinin 70 illik dövrü ərzində səhifələrində dərc olunan bədii və ədəbiyyatşünaslıq əsərlərinin araşdırılmasına həsr olunmuş tədqiqatımızda qeyd edilən zaman kəsiyində qəzetdə çap olunan materiallara əsasən ədəbiyyatımızın ümumi mənzərəsi, ayrı-ayrı ediblərimizə olunan təzyiqlər, ədəbi tənqid sahəsində mövcud problemlər göstərilmişdir. Əlifbanın dəyişdirilməsi problemi, repressiya illərində xalqımızın üzləşdiyi çətinliklər, Böyük Vətən müharibəsində Azərbaycan oğullarının göstərdikləri igidliklərin poeziya və nəsrimizdə tərənnümü və təsviri, Cənubi Azərbaycan şairlərinin yaradıcılığına diqqət və digər məsələlər araşdırmamızın aparıcı istiqamətini təşkil etmişdir.

2. Belə qənaətə gəlinmişdir ki, 1920–1991-ci illərdə dərc edilən materiallarda Azərbaycan dilinin saflığı, xüsusilə ötən əsrin 20-30-cu illərində ərəb-fars sözlərindən təmizlənməsi, bədii ədəbiyyatın, daha çox poeziyanın sadə danışıq dilinə yaxın şəkildə yazılması, oxucunun başa düşdüyü sözlərlə təqdim edilməsi qəzetin ilk nömrələrindən diqqət mərkəzində saxlanılmışdır.

3. Məlum olduğu kimi, repressiya dalğası Azərbaycan xalqının bir çox milli yazıçı və ədəbiyyatşünaslarını məhv etdi, onların yazıb-

yaratmaq arzularına son qoydu. Bu ağrı-acıların əziyyətini uzun müddət xalqımız çəkdi və bu gün də o zərbələrin izləri tam sağalmamışdır. Çar Rusiyası və Cümhuriyyət dövründə Azərbaycanda yaşamış milli ziyalılar Sovetlər dönəminin ilk onilliklərində xalqa düşmən obrazında təqdim edilirdi. Bunu repressiya olunanların qələm yoldaşlarının "xəyanəti", yaxud yazdıqları əsərlərin "keyfiyyətsiz" olması, dövrün tələblərinə cavab verməyən əsərlər yazmaları ilə əlaqələndirmək sadəlövhlük olardı. Əminliklə demək olar ki, repressiya – ali partiya rəhbərliyinin xalqlara qarşı keçmişin izini itirmək, milli ənənələri unutdurmaq, cəmiyyətdə xof və vahimə yaratmaq üçün tətbiq edilən bir cəza vasitəsi idi. Bunun da nəticəsində yazıçı və şairlərimiz, alimlərimiz neçə-neçə yeni gözəl əsərlər yazmaqdan, qəlblərinin dərinliklərindən gələn poetik duyğuları, düşüncələri qələmə almaqdan məhrum edilmiş, onların, hətta sabaha sağ çıxmaq ümidləri belə olmamışdır. Nəzərə almaq lazımdır ki, "Kommunist" qəzeti ölkəni idarə edən, alternativi olmayan bir partiyanın rəsmi orqanı idi və belə bir şəraitdə qəzetin səhifələrində yayımlanan ədəbiyyatın bədii məziyyətlərində, ideya xüsusiyyətlərində yüksək peşəkarlıq axtarmaq doğru olmazdı. Həmin əsərlərin dövrün ictimai-siyasi hadisələrini real surətdə əks etdirməsi, klassik ədiblərimizin ənənələrini davam etdirmək istəyi xüsusi qeyd edilməlidir ki, bunların özü də yazıçı və ədəbiyyatşünaslardan hünər tələb edirdi.

4. Böyük Vətən müharibəsindəki qələbədə Azərbaycan xalqının bütün zümrələrinin iştirakı və payı olmuşdur. Bu gün həmin dövrün bədii nümunələrinin üstündən xətt çəkmək, "zəif sənət əsərləri" damğası ilə yaddaşlardan silmək, fikrimizcə, düzgün olmaz. Qarabağ uğrunda gedən 44 günlük savaşda xalqı milli birliyə və Vətən uğrunda savaşa səsləyən əsərlərdə də Böyük Vətən müharibəsi ədəbiyyatının izlərini görürük.

5. Cənubi Azərbaycan ədəbiyyatında rast gəldiyimiz əsas xüsusiyyətlər, hər şeydən əvvəl, xalqın zorla bir-birindən ayrılmasına etiraz, düşdüyü acı durumdan çıxmaq üçün mübarizə aparmaq istəyinin güclü olması idi. Milli Hökumətin fəaliyyəti nəticəsində Cənubda yaranan ruh yüksəkliyi, ana dilində məktəblərin açılması, mərkəzi hakimiyyətdən muxtariyyət tələbləri xalqın yaddaşında dərin iz qoydu. Yaradıcı ziyalılarımız öz əsərlərində tarixən bir olan xalqın ikiyə bölünməsi, qardaşın bacıdan, ananın baladan ayrılması kimi taleyüklü

məsələləri dilə gətirməklə Cənubda yaşayan azərbaycanlıların qəlbində böyük ümidlər oyadırdılar. Həmin şeirlərdə Azərbaycanın ikiyə bölünməsini şərtləndirən amillərin konkret qeyd edilməməsi heç də bədii nümunələrin dəyərini azaltmır. Sovet rəhbərliyinin siyasi iradəsinə zidd olaraq yazıçı və şairlər ikiyə bölünmüş Azərbaycanın həqiqi dərdlərini, onun siyasi oyunların qurbanına çevrilməsini açıq şəkildə göstərə bilməsələr də, öz yaradıcılıqlarında xalqımızı həmişə milli birliyə səsləyirdilər. Beləliklə, tədqiqata cəlb etdiyimiz nümunələrədən də görünür ki, bu əsərlər illərdən bəri ayrı düşmüş bir xalqın ürəklərdə gizli qalan birləşmə, ən azından sərbəst şəkildə gediş-gəlişin bərpa olunması kimi müqəddəs arzularının bədii ifadəsi idi.

6. Ötən əsrin 40–50-ci illərində yaranmış şərait milli ruhu oyatmaqla yanaşı, dil və ədəbiyyatımızın inkişafına da müsbət təsir göstərdi. Həmin dövrdə İrandan Azərbaycana köçüb gələn insanlar arasında şair və yazıçılar da var idi. Onlara Balaş Azəroğlu, Mədinə Gülgün, Hökumə Billuri, Əli Tudə, Söhrab Tahir, Aşıq Hüseyn Cavan, Mir Mehdi Çavuşi və başqalarını misal göstərmək olar ki, "Kommunist" qəzeti həmin şəxslərin əsərlərini çap etməklə yanaşı, yaradıcılıqları barədə də məqalələr dərc edirdi.

7. Sovet dövründə yazıçı və şairlərimizin üzərində olan siyasi basqılar, əsərlərinin senzura tərəfindən təftiş olunaraq çap edilməsi, eləcə də, azad sözün ifadəsinə qoyulan yasaqlara baxmayaraq, həmin illərin yazıçılarının Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətləri danılmazdır. Bu günün, sabahın ədəbiyyatı məhz həmin illərin yazıçı və şairlərinin əsərlərindən qidalanan sonrakı nəsillərin yaratdığı əsərlərdən formalaşır. Ona görə tədqiqata cəlb etdiyimiz 1920-1991-ci illər ədəbiyyatının "Kommunist" qəzetində təqdim edilən materiallar əsasında araşdırılması hesab etmişik ki, faydalı və aktualdır.

8. Tədqiqatımızda "Kommunist" qəzetinin 71 illik bir dövrünün ədəbi-tənqidi materialı kompleks şəkildə araşdırmaya cəlb edilmişdir. Qeyd edilən dövrdə qəzetdə dərc edilən poeziya və nəsr nümunələrinin, o cümlədən ədəbi tənqidlə bağlı məqalələrin ilk dəfə sistemli şəkildə öyrənilməsi, elmi təhlilinin hazırlanaraq gələcək tədqiqatçılar üçün əlçatan olması təmin olunmuşdur. Eyni zamanda Nizami Gəncəvinin əsərlərinin tədqiqi və nəşri məsələləri, 1945–1950-ci illərdə Cənubi Azərbaycan ədəbiyyatının inkişafı, qəzetdə dərc olunan əsərlərin

mövzusu, ikiyə bölünmüş Vətənin birləşməsi uğrunda aparılan mübarizə tədqiqat işində öz əksini tapmışdır.

9. Qarabağ probleminin başlanması zamanı şair və yazıçılarımızın torpaqlarımızın müdafiəsi istiqamətində xalqı səfərbərliyə səsləyən şeirləri, hekayə və povestləri də araışdırılmış, onların elmi-filoloji təhlili verilmişdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU MÜƏLLİFİN AŞAĞIDAKI ƏSƏRLƏRİNDƏ ƏKSİNİ TAPIB:

1. Böyük Vətən müharibəsi illərində "Kommunist" qəzetində poeziya // –Bakı: Risalə. Araşdırmalar toplusu. – 2017. 13-cü kitab, - s. 137-153.
2. "Kommunist" qəzetində repressiya illərində ədəbiyyat və tənqid (1936–1937) // - Bakı: Risalə. Araşdırmalar toplusu. – 2020. №1 (18), - s.112-127.
3. Nizami Gəncəvinin əsərlərinin Azərbaycanda tədqiqi tarixi 1939-1948) // Nizami Gəncəvi "Xəmsə"sinin Şərq, Qərb ədəbi-mədəni əlaqələri sistemində yeri və yaratdığı yeni istiqamətlər. Beynəlxalq elmi konfransın materialları. – Bakı: 25-27 noyabr, –2021. – səh. 272-275.
4. Nizami Gəncəvinin əsərlərinin tədqiqi və tərcüməsi məsələləri (1939-1948) // - Bakı: Azərbaycan ədəbiyyatşünaslığı. – 2021. №2. -səh. 212-222.
5. Azərbaycan mətbuatında sovet dövründə türkdilli xalqların ədəbiyyatı // - Türkiyə: TuranSam. – 2021. 13-cü cild, № 49, -səh. 180-188.
6. Cənubi Azərbaycan mövzusu "Kommunist" qəzetində (1945–1959) // - Bakı: Risalə. Araşdırmalar toplusu, - 2021. № 2, -səh. 101-117.
7. Əlişir Nəvainin yaradıcılığı XX əsrin mətbuat səhifələrində (1941–1968) // "Özbək mütəfəkkirlərinin dil nəzəriyyəsi haqqında görüşləri" Beynəlxalq elmi və nəzəri konfransın materialları. - Daşkənd: - 15 may, - 2021, -s. 149-154

8. Nazim Hikmət yaradıcılığı ötən əsrin mətbuat səhifələrində (“Kommunist” qəzeti 1932-1957) // Nazim Hikmətin 120 illik yubileyinə həsr olunmuş “Dünyadan keçən Nazim və Nazimdən keçən dünya” mövzusunda respublika elmi konfransının materialları– Bakı: - 5-6 dekabr, 2022-ci il, - səh. 31-36.
9. “Azərbaycan və özbək ədəbi əlaqələri “Kommunist” qəzetinin səhifələrində” adlı əsərlərində öz əksini tapmışdır // “Qloballaşma dövründə fərqli strukturlu dillərə münasibət” mövzusunda beynəlxalq elmi-əməli konfrans, – Nəvai (Özbəkistan): - 15 noyabr, - 2023, - səh. 309-314.



Dissertasiyanın müdafiəsi 14 may 2024-cü il tarixində saat 12³⁰ - da Azərbaycan Milli Elmlər Akdemiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1143, Bakı şəhəri, H.Cavid prospekti – 115. Akademiya şəhərciyi. Əsas bina, IV mərtəbə. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron Zalı.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akdemiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akdemiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 9 aprel 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 14.03.2024

Kağızın formatı: A5

Həcm: 37769

Tiraj: 100